*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**



# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır | 28 oktyabr 2015-ci il | № 82 (1998) | Qiyməti 25 qəpik

## Rəsmi xronika

*✓Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 22-də Beynəlxalq Mülki Aviasiya Təşkilatının prezidenti Olumuiva Benard Aliunu və Dövlətlərarası Aviasiya Komitəsinin sədri xanım Tatyana Anodinanı qəbul edib.*

*Dövlətimizin başçısı Beynəlxalq Mülki Aviasiya Təşkilatının (ICAO) 70 illiyinə və Dövlətlərarası Şuranın icra orqanı olan Dövlətlərarası Aviasiya Komitəsinin 25 illiyinə həsr olunan Aviasiya və Hava Məkanından İstifadə üzrə Dövlətlərarası Şuranın 35-ci iclasının Bakıda keçirilməsinin önəmini vurğuladı. Azərbaycanın əlverişli coğrafi mövqeyinin regional nəqliyyat infrastrukturunun və logistik mərkəzin yaradılması baxımından yaxşı imkan yaratdığını deyən Prezident İlham Əliyev mülki aviasiyanın daha da inkişaf etdirilməsinin iqtisadi strategiyamızın çox əhəmiyyətli hissəsi olduğunu vurğuladı.*

*Görüşdə Azərbaycan ilə Beynəlxalq Mülki Aviasiya Təşkilatı arasında əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

* * *

*✓Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 22-də Rusiya Federasiyası Dağıstan Respublikasının rəhbəri Ramazan Abdulatipovu qəbul edib.*

*Dövlətimizin başçısı Rusiya Federasiyası Dağıstan Respublikasının rəhbəri Ramazan Abdulatipovun ölkəmizə səfərinin ənənəvi qardaşlıq əlaqələrinin müzakirəsi üçün yaxşı imkan yaratdığını vurğuladı. Ölkəmizlə Rusiya Federasiyasının Dağıstan Respublikası arasında əlaqələrin region üçün, bütövlükdə Azərbaycan-Rusiya münasibətlərinin inkişafı baxımından çox əhəmiyyətli olduğunu qeyd edən Prezident İlham Əliyev bildirdi ki, dövlətlərarası ikitərəfli münasibətlər möhkəmləndikcə, Azərbaycan-Dağıstan ənənəvi əlaqələri daha da güclənir.*

* * *

*✓Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 23-də Dünya Bankının Avropa və Mərkəzi Asiya üzrə yeni təyin olunmuş vitse-prezidenti Siril Müllerin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.*

*Azərbaycanda həyata keçirilən inkişaf proseslərinin bundan sonra yeni formatda davam etdiriləcəyini deyən Prezident İlham Əliyev müstəqilliyimizin ilk illərində maliyyə-iqtisadi çətinliklərin mövcud olduğunu vurğuladı. Dövlətimizin başçısı sonrakı illərdə ölkəmizdə çox böyük nailiyyətlərin əldə olunduğunu məmnunluqla qeyd etdi. Prezident İlham Əliyev bildirdi ki, Azərbaycanda həyata keçirilən uğurlu enerji siyasəti nəticəsində əldə edilən gəlirlərdən məqsədyönlü şəkildə istifadə olunmaqla infrastrukturun yaradılması, biznes imkanlarının genişləndirilməsi, yeni iş yerlərinin açılması, yerli istehsalın artırılması və digər istiqamətlərdə mühüm işlər görülüb.*

**AZƏRTAC-ın materialları əsasında**

## Azərbaycan Prezidenti İlham ƏLİYEV:

# Heç bir qüvvə bizim yolumuzda dayana bilməz



***Azərbaycanın son illər iqtisadiyyatda və digər sahələrdə qazandığı uğurlar deməyə əsas verir ki, dünyada gedən maliyyə böhranına baxmayaraq, ölkəmiz düşünülmüş siyasət nəticəsində öz inkişafını davam etdirir. Müasir texnologiyalar, qeyri-neft sektorunun inkişafı ölkə iqtisadiyyatını irəliyə aparacaq əsas amillərdir. Bu gün Azərbaycanda müasir tələblərə cavab verən müəssisələr yaradılır ki, bütün bunlar da güclü sənayeləşmənin formalaşması üçün başlıca şərtdir.***

Oktyabrın 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Sumqayıt şəhərində "Azərkimya" İstehsalat Birliyinin etilen-polietilen zavodunda yeni qurğuların işə salınması mərasimində iştirak edib. Ölkəmizdə kimya sənayesinin böyük ənənələrə malik olduğunu bildirən dövlətimizin başçısı qeyd edib ki, bundan sonra da azad sahibkarlığın inkişafı üçün əlverişli şərait yaradılacaqdır. "Bütün xoşagəlməz hallara qarşı daha da ciddi mübarizə aparılmalıdır. Sahibkarlığın inkişafı Azərbaycanın ümumi inkişafının əsas şərtidir. Son vaxtlar qəbul edilmiş qərarlar, qanunlar, sərəncamlar bu məqsədi güdür ki, sahibkarlara heç kim mane olmasın, süni əngəllər aradan qaldırılsın, sahibkarlar maksimum dərəcədə sərbəst, rahat şəraitdə işləsinlər, ölkəmizə vəsait qoysunlar, iş yerləri yaratsınlar və Azərbaycanda biznes mühiti daha da yaxşılaşsın".

Dövlət rəhbərinin birmənalı mövqeyi ondan ibarətdir ki, Azərbaycanda azad sahibkarlıq mühiti yaradılsın və insanlar bu sahəni inkişaf etdirməkdə, yeni istehsal sahələri yaratmaqda maraqlı olsunlar. Əlbəttə, iqtisadiyyatın sürətli inkişafı ölkədə sosial sahələrin, həmçinin, güclü ordunun inkişafına şərait yaradan ən başlıca amildir. Güclü iqtisadiyyatı olmayan dövlətin hərbi qüdrətindən danışmağa dəyməz. İqtisadiyyat inkişaf etdikcə ordumuz da sürətli şəkildə hərbi potensialını artırır. Heç kimə sirr deyil ki, Azərbaycan hazırda ən müasir silah və texnikalara malikdir və işğalçı dövlətlə müqayisədə ölkəmizin hərbi gücü xeyli artıb. Prezidentin qeyd etdiyi kimi, ölkəyə investisiyaların cəlb edilməsi və iqtisadi sahədə inkişafa nail olmağımız Azərbaycanın gücünü göstərir. "Heç bir qüvvə bizim yolumuzda dayana bilməz. Çünki bizim yolumuz inkişaf, tərəqqi, sosial rifah, sosial ədalət yoludur".

Xalqımızın yaddaşında bir deyim var: elin gözü tərəzidir. Azərbaycan xalqı görür və inanır ki, dövlətimizin rəhbərliyi səviyyəsində həyata keçirilən bütün islahatlar cəmiyyətin hərtərəfli inkişafına hesablanıb. Elə buna görə də bütün görülən işlər, atılan addımlar xalqımız tərəfindən güclü dəstək alır. Biz inanırıq ki, artan iqtisadi potensialımız nəticəsində Azərbaycan dünyada öz nüfuzunu qətiyyətlə qoruyub saxlayacaq və hər zaman öz iradəsini diktə edəcəkdir.

**"Azərbaycan Ordusu"**

## Nur Xolis: Dağlıq Qarabağ münaqişəsi Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır

***Oktyabrın 24-də əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının İşçi Qrupunun rəhbəri Firudin Sadıqov İndoneziya Respublikasının İnsan Hüquqları üzrə Milli Komissiyasının sədri Nur Xolisin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.***

Görüşdə Firudin Sadıqov qaçqın və məcburi köçkün, itkinlər probleminin Azərbaycan üçün böyük problem olduğunu deyib. O əlavə edib ki, ölkəmiz bu problemlə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi zamanı rastlaşdı.

Firudin Sadıqov əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının strukturu və fəaliyyəti barədə məlumat verib. Bildirib ki, 1993-cü ildə Azərbaycan Prezidentinin Sərəncamı ilə yaradılan Komissiya 32 nəfərdən ibarətdir. Bu Komissiyanın tərkibində Azərbaycanın bir çox nazirliklərinin rəhbər işçiləri, parlamentin üzvləri, mətbuat və QHT nümayəndələri var. Komissiyanın tərkibində daimi fəaliyyət göstərən İşçi Qrupu yaradılıb.

Diqqətə çatdırılıb ki, Dağlıq Qarabağ münaqişəsi nəticəsində itkin düşən Azərbaycan vətəndaşlarının sayı 4 mindən artıqdır. Onların əksəriyyəti mülki şəxslərdir. Bu isə 9 milyon yarım əhalisi olan bir ölkə üçün böyük rəqəmdir.

İşçi Qrupun rəhbəri deyib: "Son illər fəaliyyətimiz nəticəsində 1000 nəfərdən artıq itkinin taleyinə aydınlıq gətirilib. Münaqişə başlayandan bəri biz 1434 insanı əsirlikdən və girovluqdan azad etməyə nail olmuşuq. Azərbaycanda itkinlərin sayı ona görə çoxdur ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi dünyada baş verən silahlı münaqişələrin heç birinə bənzəmir. Azərbaycan ərazisinin 20 faizi işğal olunub. Zəbt edilən torpaqlarda böyük dağıntılar törədilib, həmin ərazilərdə bir nəfər də azərbaycanlı qalmayıb. Beynəlxalq humanitar hüquq da mülki şəxslərin girov götürülməsini qadağan edir.

Qeyd edilib ki, əsas vəzifəsi itkinlərin axtarışı, əsir-girov götürülmüş şəxslərin azad olunması, o cümlədən atəşkəsin pozulması və ya digər səbəblərdən həyatını itirmiş insanların cəsədlərinin qaytarılması işinin təşkilinə cavabdeh olan Dövlət Komissiyası beynəlxalq təşkilatlarla səmərəli əməkdaşlıq edir.

Görüşdə, həmçinin, Ermənistan silahlı birləşmələrinin işğal etdiyi Kəlbəcər rayonunda öz doğma yurdlarını və ata-analarının məzarını ziyarət edərkən ermənilər tərəfindən girov götürülmüş, sonra isə separatçı Dağlıq Qarabağ rejiminin "məhkəməsinin qərarı" ilə barələrində "hökm" çıxarılmış azərbaycanlı mülki şəxslər Dilqəm Əsgərov və Şahbaz Quliyevlə bağlı məlumat verilib. İşğalçı ölkənin bu barədə tutduğu mövqe Ermənistan tərəfindən beynəlxalq hüquq normalarına hörmətsizlik, onların kobud şəkildə pozulması və ciddi özbaşınalıq kimi dəyərləndirilib.

N.Xolis Dağlıq Qarabağ münaqişəsinin nəticələrinin çox ağır olduğunu deyib. O, azərbaycanlı qaçqın və məcburi köçkünlərin hüquqlarının pozulmasının, onların öz doğma torpaqlarına qayıda bilməməsinin böyük ədalətsizlik olduğunu vurğulayıb. Qonaq Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməsinin zəruriliyini vurğulayıb.

Söhbət zamanı Dağlıq Qarabağ münaqişəsi, itkinlərin axtarışı, əsir-girov götürülmüş şəxslərin azad olunması, həyatını itirmiş insanların cəsədlərinin qaytarılması ilə bağlı fikir mübadiləsi aparılıb, qonaqların sualları cavablandırılıb.

**AZƏRTAC**

## Özbəkistan portalı Dağlıq Qarabağ münaqişəsindən yazır

***Özbəkistanın 1.news.uz portalında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı məqalə yayılıb.***

***Məqalədə Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarovun Ermənistan-Azərbaycan münaqişəsinə dair fikirlərinə yer verilir.***

Bildirilir ki, BMT-nin Təhlükəsizlik Şurası Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğalını pisləyən dörd qətnamə qəbul edib. Qətnamələrdə Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı, suverenliyi, ərazi bütövlüyü və işğal olunmuş torpaqlarının qeyd-şərtsiz boşaldılması tələb edilir.

Məqalədə BMT Nizamnaməsinin 51-ci maddəsinə nəzər salınaraq vurğulanır ki, Azərbaycan öz hüququndan istifadə edərək torpaqlarını geri qaytara bilər. Nazirə istinadla regionda mövcud status-kvonun qəbuledilməz olduğu diqqətə çatdırılır, Azərbaycanın optimist mövqe tutduğu və BMT-nin prinsiplərinə sadiq qaldığı qeyd edilir. E.Məmmədyarov deyir ki, Azərbaycan heç vaxt öz ərazi bütövlüyünü güzəştə getməyəcək.

Məqalənin sonunda Dağlıq Qarabağ münaqişəsinin tarixi barədə məlumat verilir, problemin 1988-ci ildə Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları irəli sürməsi səbəbindən yarandığı, Azərbaycan ərazisinin 20 faizinin Ermənistan silahlı qüvvələri tərəfindən işğal edildiyi bildirilir.

**AZƏRTAC**

AZƏRBAYCAN ORDUSU

# "Açıq qapı" günü xalq ilə ordu birliyinin əsl təntənəsinə çevrilib

## Azərbaycan Respublikasının Müdafiə naziri hərbihissələrdə keçirilən "Açıq qapı" günündə iştirak edib

***Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin göstərişinə əsasən, hərbi hissələrdə "Açıq qapı" günü tədbiri keçirilib. Oktyabrın 25-də Əlahiddə Ümumqoşun Ordu, birlik, birləşmə və hərbi hissələrdə, Hərbi Hava Qüvvələrinin aviabazalarında, Hərbi Dəniz Qüvvələrinin gəmilərində, o cümlədən xüsusi təyinatlı təhsil müəssisələrində səhər saatlarından başlayan "Açıq qapı" günü tədbirlərində əsgər valideynləri və yaxınları, yerli icra orqanlarının nümayəndələri, müharibə veteranları, rayon ictimaiyyəti və təhsil ocaqlarının təmsilçiləri iştirak ediblər.***



Həmin gün hərbi hissəyə gələn Müdafiə naziri general-polkovnik Zakir Həsənov əsgər valideynləri və yaxınları ilə görüşərək Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin tapşırığına əsasən, qısa müddətdə Silahlı Qüvvələrdə həyata keçirilən islahatlar, ordunun silahlanmasına qəbul edilən ən müasir döyüş texnikası, silah-sursat, şəxsi heyətin sosial-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə görülən işlər, yeni inşa edilən hərbi şəhərciklər, eləcə də müdafiə sahəsinə aid infrastruktur dəyişiklikləri və digər məsələlər barədə söhbət edib.

Ziyarətçilər hərbi hissədə əsgərlərin yaşayış və məişəti üçün yaradılan şəraitlə tanış olub, xidməti, inzibati binaları, hamam-camaşırxana-qazanxana kompleksini gəzib, nümayiş etdirilən döyüş texnikası və silahlara baxıb, təlim nöqtələrində hərbi qulluqçuların çıxışlarını izlədikdən sonra əsgər yeməkxanasında nahar edib və xatirə şəkli çəkdiriblər.

Keçirilən tədbirdən və hərbi hissədə şəxsi heyət üçün yaradılan şəraitdən məmnun qalan valideynlər dövlət başçısına Silahlı Qüvvələrə göstərdiyi diqqət və qayğıya görə minnətdarlıqlarını ifadə ediblər.

Bildirilib ki, "Açıq qapı" günü tədbirləri bundan sonra da bütün hərbi hissələrdə mütəmadi olaraq keçiriləcəkdir.

* * *





Ötən bazar günü Silahlı Qüvvələrimizin bütün hərbi hissələrində bayram ovqatı vardı. "Açıq qapı" günündə övladları ilə görüşə gələn valideynlərlə yanaşı, ictimaiyyətin nümayəndələri, məktəblilər zabit və əsgərlərimizlə görüşə gəlmişdilər.

Cəbhə bölgəsindəki hərbi hissələrdə də "Açıq qapı" günü ilə bağlı bir qələbəlik yaşanırdı. Belə tədbirlərdən birində şahidi olduğum hadisələr qəlbimi qürur hissilə doldurdu. Əsgər valideynləri və yaxınları hərbi hissənin nəzarət-buraxılış məntəqəsinin qarşısında toplaşmağa başladı. Azərbaycanın və qardaş Türkiyənin dövlət bayraqları ilə bəzədilmiş avtomobil karvanının hərbi hissənin giriş qapısına yaxınlaşması isə insanlarda ayrı bir ovqat yaratdı. Məlum oldu ki, onlar torpaqlarımızın azadlığı uğrunda vuruşmuş və bu gün də döyüşlərə atılmağa hazır olan vətənpərvər Beyləqan sakinləridir.

Hərbi hissənin ərazisi bayramsayağı bəzədilmişdi. Şəxsi heyət tribuna ilə üzbəüz səf-səf düzülmüşdü.

Zabitlərin təşkilatçılığı ilə hamı əvvəlcə azərbaycanlıların soyqırımına həsr edilmiş abidə kompleksinin yanına gəldilər. Abidənin qarşısında ucaboylu əsgərlər fəxri qarovulda dayanmışdılar. Ziyarətçilər cərgə-cərgə yaxınlaşıb abidənin qarşısına tər güllər düzdülər, soyqırım qurbanlarının xatirəsini yad etdilər.

Hərbi hissəyə təşrif buyuranların arasında sinəsini Azərbaycanın Milli Qəhrəmanının döş nişanı bəzəyən Məhəmməd Həsənovu görmək bizdə olduqca xoş duyğular oyatdı. Goranboy, Ağcakənd, Ağdərə istiqamətlərində gedən döyüşlərdə şücaət göstərmiş Məhəmməd müəllim veteran olsa da, bu gün özünü ordumuzdan kənarda təsəvvür etmir.

Bu bölgədə ordumuzla bağlı keçirilən tədbirlərdə tez-tez iştirak edirəm və bu tədbirlərin, demək olar ki, hamısına vətənpərvər insanlardan biri, Xocavənd rayonu İcra Hakimiyyətinin başçısı Eyvaz Hüseynov məmnuniyyət hissilə qatılıb. Qardaşları ilə birlikdə silah götürərək Ermənistan silahlı birləşmələrinə qarşı cəsarətlə vuruşmuş Eyvaz müəllim bu gün də ordumuzun yanındadır. Onu "Açıq qapı" günündə də görmək olduqca xoş idi.

Olduqca qürurverici idi ki, hərbi qulluqçularla bərabər valideynlər, məktəbli oğlan və qızlar, digər qonaqlar sağ əllərini ürəklərinin üstünə qoyub İstiqlal marşımızı ucadan oxumağa başladılar. Bu, insanların Vətən sevgisinin bariz ifadəsi idi. Deməli, ölməz şairimiz Məmməd Araz demişkən, bu torpağın qayasında mamır olub bitmək istəyən oğul və qızlarımız saysız-hesabsızdır. Bunu sadəcə görmək lazım idi ki, bir daha Vətənimizlə, vətəndaşlarımızla qürur hissi keçirəsən.

Mayor Namiq Cavadov "Açıq qapı" gününə həsr edilmiş tədbiri giriş sözü ilə açdı və mərasimlə bağlı hazırlanmış proqramla qonaqları tanış etdi, hərbi hissədə baş vermiş dəyişikliklərin son illərdə ordu quruculuğu sahəsində əldə edilmiş nailiyyətlərin bariz nümunəsi olduğunu söylədi.

Sonra çıxış üçün söz qonaqlara verildi. Mikrofon önünə keçən şəhid ailəsinin üzvü Allahverdi Kərimov, Azərbaycanın Milli Qəhrəmanı Məhəmməd Həsənov, Qarabağ müharibəsi veteranı Akif Həsənov, şair Asif Cəfərli və başqaları yaxın zamanlarda inşa edilmiş və ən müasir tələblərə cavab verən hərbi hissədə gördüklərindən məmnunluq ifadə etdilər, son illərdə dövlət rəhbərliyinin qayğısı ilə Azərbaycan Silahlı Qüvvələrində baş vermiş dəyişiklikləri bu hərbi hissənin timsalında gördüklərini söylədilər.

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev Ağdam və Bərdə rayonlarına səfəri zamanı bundan sonra da ordumuza diqqət və qayğını əsirgəməyəcəyini xüsusi vurğulamışdı: "Biz bundan sonra da öz döyüş potensialımızı artıracağıq. Hazırda Azərbaycan Ordusunun maddi-texniki təchizatı ən yüksək səviyyədədir. Son vaxtlar əldə etdiyimiz silah, texnika deməyə əsas verir ki, biz istənilən vəzifəni icra edə bilərik".

Doğrudan da, "Açıq qapı" günü əslində xalqın övladı olan ordu ilə cəmiyyət arasında sıx əlaqələrin yaranmasına, Silahlı Qüvvələrimizin ölkə vətəndaşları arasında nüfuzunun daha da möhkəmlənməsinə, hərbi hissələrimizdə baş verən müsbət dəyişikliklərin geniş təbliğinə hesablanmış tədbirdir. Necə deyərlər, həm göstərməyə, həm də iftixar hissi keçirməyə yetərincə əsas var.

Valideyn və qonaqlar üçün maraqlı məqamlardan biri hərbi xidmətdə fərqlənən döyüşçülərin mükafatlandırılması oldu. Nümunəvi xidmətilə seçilən əsgərlərin valideynlərinə təşəkkür məktubu ünvanlandı, digərləri təşəkkürə, fəxri fərmana, qısamüddətli məzuniyyətə layiq görüldülər.

Cərgə ilə düzülmüş döyüş texnikası, müasir artilleriya və atıcı silahlar, hərbi qulluqçuların geyim və qida dəstləri ziyarətçilərə nümayiş etdirildi. Orta məktəbin yuxarı siniflərində oxuyan, gələcəyin əsgər və zabitləri olacaq yeniyetmələr isə hərbi silah və texnikaya daha çox maraq göstərirdilər.

Təbii ki, əsgərlərin valideynlərini, yaxınlarını, qonaqları şəxsi heyətin məişət şəraiti, gərgin xidmət vaxtından sonra istirahəti, qidalanması xüsusilə maraqlandırırdı. Hərbi hissə komandanlığı bu məqamı nəzərə almışdı və ziyarətçilər hərbi hissənin yataqxanası, hamamı, məişət otaqları, yeməkxanası ilə yaxından tanış oldular, Vətən oğulları ilə birlikdə əsgər mətbəxinin ləzzətli yeməklərindən də daddılar. Hiss olunurdu ki, burada gördükləri onların hamısının ürəyincədir.

* * *





Hərbi Hava Qüvvələrinin tabeliyində olan "N" həbi hissəsində keçirilən "Açıq qapı" günü tədbiri Müdafiə nazirinin müavini - Hərbi Hava Qüvvələrinin komandanı general-leytenant Ramiz Tahirovun valideynlərlə görüşü ilə başlayıb.

Sonra valideynlərə hərbi hissə ilə tanış olmaq imkanı yaradılıb. Onlar əsgərlərin sosial-məişət şəraiti ilə yaxından tanış olub, əsgər yataqxanasına, hamama, yeməkxanaya baş çəkiblər.

Əsgər İsa Əliyevin anası Minurə Əliyeva yaradılan şəraitdən, gördüklərindən heyrətə gəldiyini dedi.

- Hər gecə isti evimdə oğlum yadıma düşür. Yatdığı yerin soyuq olmasından, gecələr üşüməsindən qorxurdum. Bu gün burda oğlum İsanın qar kimi təmiz çarpayısını, isti əsgər yataqxanasını gördükdən sonra, sözün əsl mənasında, rahatlıq tapdım.

Valideynlər hərbi hissə komandanlığının nümayəndələri ilə birgə əsgər hamamı ilə tanış olmaq imkanı tapdılar. Müasir standartlara cavab verən soyunub-geyinmə otağı, 20 duşdan ibarət fərdi kabinələr hər kəsin xoşuna gəldi. Əsgər Vasif Ağayevin əmisi yaradılan şəraitin möhtəşəm olduğunu və belə şəraitdən çox razı qaldıqlarını bildirdi. Onun hərbi hissəyə yanında gətirdiyi 9 yaşlı oğlunu çəkinmədən əsgəri xidmətə göndərərəm deməsi yaradılan şəraitin həqiqətən ürəkaçan olduğunu diqqətə çatdırır.

Tədbir valideynlərin iştirakı ilə brifinq zalında davam etdi. General-leytenant Ramiz Tahirov valideynlər qarşısında çıxış edərək bildirdi ki, Azərbaycan Ordusu qısa zaman ərzində böyük inkişaf yolu keçib. Azərbaycan Silahlı Qüvvələri ona görə tez bir zamanda tam formalaşdı və inkişaf etdi ki, bu ordunu məhz ulu öndər Heydər Əliyev çox dahiyanə və uzaqgörənliklə yaradıb. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev siyasi hakimiyyətinin ilk günlərindən başlayaraq ordunun inkişafına və döyüş qabiliyyətinin artırılmasına böyük diqqət göstərir.

Nazir müavini çıxışına davam edərək bildirib ki, qüdrətli Azərbaycan Ordusunun mövcudluğu hər bir vətəndaşımızın arzusu idi. Artıq bu, arzu deyil, reallıqdır. Bu gün ordumuzun qarşısında duran əsas vəzifə odur ki, Ali Baş Komandan əmr verən kimi, torpaqlarımız müharibə yolu ilə işğaldan azad edilsin. Azərbaycan Silahlı Qüvvələri tarixi vəzifənin öhdəsindən gəlməyə tam hazırdır. Azərbaycan Ordusu müstəqilliyimizi əbədiliyini təmin etmək və ərazi bütövlüyümüzü bərpa etmək gücündədir.

"Açıq qapı" günü ordu ilə cəmiyyət arasındakı vəhdətin artırılmasına, xalqın ordumuzda gedən inkişafı öz gözü ilə görməsinə imkan yaradır. Bu gün Azərbaycan Ordusunun beynəlxalq standartlar səviyyəsində inkişafı üçün bütün zəruri addımlar atılır. Ordu quruculuğuna dair bütün mühüm tədbirlər müvəffəqiyyətlə, ardıcıl surətdə, mövcud siyasi kursun tələblərinə uyğun şəkildə yerinə yetirilir. Silahlı Qüvvələrin sıralarında hərbi xarakterli cinayətlərin azalması da məhz ordumuzun gücləndirilməsi istiqamətində həyata keçirilmiş tədbirlərin, hərbi vətənpərvərlik əhval-ruhiyyəsinin nəticəsidir. Azərbaycan Ordusunun mütəşəkkilliyi sahəsində görülən iri miqyaslı işlər ictimaiyyət tərəfindən də razılıqla qarşılanır.

Ordu quruculuğu işinin sürətli və keyfiyyətli aparılması baxımından dövlətlə yanaşı, ictimaiyyətin diqqəti, qayğısı da son dərəcə vacib amildir. Xalq öz ordusunu o zaman sevir ki, ona güvənir, döyüş qüdrətinə, qələbə əzminə inanır və mənəvi-psixoloji dəstəyini ondan əsirgəmir. Bu dəstək dövlət başçısının orduya, onun maddi-texniki təchizatının, sosial-məişət şəraitinin yaxşılaşdırılmasına göstərdiyi qayğı ilə vəhdət təşkil edəndə, həyata keçirilən islahatlar daha səmərəli nəticələr verir. Keçirilən islahatların və Ali Baş Komandan İlham Əliyevin orduya göstərdiyi diqqət və qayğı nəticəsində müasir standartlara cavab verən sosial-məişət şəraiti, inzibati binalar, yüksək səviyyəli maddi-texniki təminat, silah-sursat ilə tanış olmaq imkanı qazandınız.

Polkovnik Zaur Rüstəmov da öz növbəsində çıxış edərək bildirib ki, Azərbaycanda ordu quruculuğu faktiki olaraq 1993-cü ildə ulu öndər Heydər Əliyevin hakimiyyətə dönüşündən sonra başladı. Ümummilli lider Heydər Əliyevin dövlət, cəmiyyət, eləcə də dövlət idarəçiliyi sahəsində böyük təcrübəsi, ordu quruculuğu məsələsində də müsbət nəticələr ortaya qoydu. Vaxt darlığına və resurs məhdudluğuna baxmayaraq, böyük çətinliklər içərisində Heydər Əliyev qısa müddətdə Azərbaycan Ordusunun formalaşdırılmasına nail ola bildi.

Onu da qeyd etmək yerinə düşər ki, əgər 1993-cü ildə Azərbaycan Ordusunun ilkin formalaşmasından söhbət gedirdisə, artıq bu gün regionun ən güclü silahlı qüvvəsi məhz Azərbaycan Ordusudur. Bu, ulu öndər Heydər Əliyevin ordu quruculuğu ilə bağlı dahiyanə, düşünülmüş siyasi xəttinin və bu siyasətin hazırda Prezident İlham Əliyev tərəfindən ardıcıl surətdə davam etdirilməsinin nəticəsidir. Ali Baş Komandanın diqqət və qayğısı, Müdafiə naziri general-polkovnik Zakir Həsənovun idarəetməsi ilə ordumuz günü-gündən güclənir və cəbhə xəttində düşməni qorxu altında saxlayır.

Əsgər valideynləri adından çıxış edən İntiqam Əliyev yaradılan şəraitdən tam razı qaldıqlarını qeyd edərək dedi:

- "Açıq qapı" gününün keçirilməsi əlamətdar hadisədir. İlkin olaraq biz valideynlər övladlarımızın sosial-məişəti ilə yaxından tanış olduq. Mən və mənim kimi burda olan bütün valideynlərin yanında kimsə ordumuz haqqında xoşagəlməz nəsə desə, həmin insana qarşı cavabımız sərt olacaq. Çünki biz hər birimiz müasir standartlara cavab verən hərbi hissəni öz gözümüzlə gördük.

"Prezident İlham Əliyevə, Müdafiə naziri general-polkovnik Zakir Həsənova və bütün komandir heyətinə təşəkkürümü bildirirəm ki, Azərbaycan övladının qayğısına bu cür qalır və əsgərlərimiz üçün bu cür şərait yaradır.

Bu gün əsgər heç bir məişət işi görmür, təkcə işi əsgəri vəzifənin, yəni döyüş tapşırığının öhdəsindən layiqincə gəlməkdir. İşğalçı Ermənistanın ordusunu artıq Azərbaycanın Silahlı Qüvvələri ilə müqayisə etmək ən azından sadəlövhlük olardı. Azərbaycan Ordusunu yalnız dünyanın ən inkişaf etmiş dövlətlərinin Silahlı Qüvvələri ilə müqayisə etmək olar. Azərbaycan Ordusu çoxdan arzuladığımız səviyyəyə çatıb. Xalq olaraq Silahlı Qüvvələrimizlə fəxr edirik. Hər bir azərbaycanlı ailəsi övladını çox həvəslə ordu sıralarında qulluğa göndərir və göndərəcəkdir".

Tədbirin sonunda valideynlər və əsgərlər birgə süfrə arxasında nahar ediblər.

* * *



"Açıq qapı" günü "N" hərbi hissəsində də əlamətdar günə çevrildi. Respublikamızın müxtəlif bölgələrindən gələn əsgər valideynləri, ictimaiyyət nümayəndələri hərbi hissədə yüksək səmimiyyət və mehribanlıqla qarşılandılar. Əvvəlcə polkovnik Elşad Əbilov məlumat verdi ki, hərbi hissə ulu öndər, dünya şöhrətli siyasətçi Heydər Əliyevin xeyir-duası ilə həyata vəsiqə alıb. Yarandığı gündən Vətən torpaqları uğrunda döyüşlərə atılan şəxsi heyət şərəfli döyüş yolu keçib. Tərtər, Ağdərə, Füzuli, Naxçıvan bölgələrində düşmənə qarşı döyüşlərdə fəal iştirak edib. Göstərdikləri sücaətlərə və rəşadətlərə görə döyüşçülərdən bir qrupu Vətənimizin yüksək fəxri adına və orden-medallara layiq görülüb. Unudulmaz hadisə isə xalqımızın ümummilli lideri Heydər Əliyevin şəxsi heyətlə keçirdiyi görüşləridir. Bu görüşləri Vətən müdafiəçiləri heç vaxt unutmurlar. Bu gün də hərbi hissənin şəxsi heyəti qarşıya qoyulan tapşırıqları müvəffəqiyyətlə yerinə yetirir.

Öncə tədbir iştirakçıları xalqımızın xilaskarı, dahi şəxsiyyət Heydər Əliyevin büstü önünə və Vətənimizin ərazi bütövlüyü uğrunda şəhidlik zirvəsinə ucalanların xatirə kompleksinə əklillər qoydular. Sonra Dövlət himni səsləndirildi.

**(Ardı 3-cü səhifədə)**

# "Açıq qapı" günü xalq ilə ordu birliyinin əsl təntənəsinə çevrilib

## Azərbaycan Respublikasının Müdafiə naziri hərbi hissələrdə keçirilən "Açıq qapı" günündə iştirak edib



(Əvvəli 2-ci səhifədə)

Azərbaycanın Milli Qəhrəmanı general-leytenant Rövşən Əkbərov əsgər valideynləri və ictimaiyyət nümayəndələri ilə görüşdü. Ordumuza göstərilən diqqət və qayğıdan söhbət açan ali rütbəli zabit Prezident, Ali Baş Komandan İlham Əliyev tərəfindən həyata keçirilən məqsədyönlü tədbirləri diqqətə çatdırdı. Qeyd etdi ki, həyata keçirilən islahatların nəticəsi olaraq ordumuzun dinamik inkişafı təmin edilib, hərbi potensialımız daha da artırılıb. Əsgər və zabitlərimizin nümunəvi xidməti üçün hərtərəfli şərait yaradılıb. Əsas məqsədimiz, vəzifəmiz işğal altında olan torpaqlarımızın düşmənlərdən azad edilməsidir. Qətiyyətlə deyə bilərəm ki, şəxsi heyətimiz Ali Baş Komandanın əmrini yerinə yetirməyə hazırdır.

Sonra valideynlər, ictimaiyyət nümayəndələri idman meydançasına gələrək gənc əsgərlərin fiziki hazırlıq məşğələsinə tamaşa etdilər. Vətənpərvər oğullar müxtəlif idman tapşırıqlarını nümayiş etdirdilər.

Mərkəzi meydanda isə tədbir iştirakçılarına müxtəlif döyüş silahları haqqında ətraflı məlumatlar verildi. Əsgər yataqxanasına, yeməkxanaya baş çəkən valideynlər, ictimaiyyət nümayəndələri yaradılan şəraitə görə ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyevə, Müdafiə Nazirliyinin rəhbərliyinə və komandanlığa minnətdarlıq etdilər. Sonra valideynlər əsgər yeməkxanasında övladları ilə birgə nahar etdilər.

Ağdaş rayonundan gəlmiş Ofelya Çələbiyeva bildirdi ki, ölkəmizin tərəqqisi, bütün sahələr üzrə inkişaf etdirilməsi məni hədsiz sevindirir. "Bu gün isə gördüklərimiz, əsgər həyatı ilə yaxından tanış olmağımız, hərbi hissədə keçirdiyimiz gün məni ikiqat sevindirdi. Doğru deyilib ki, yüz dəfə eşitməkdənsə bir dəfə görmək yaxşıdır. Qürur duyuram ki, müstəqil dövlətimizin güclü, qüdrətli ordusu sıralarında övladlarımızın xidmət etməsini görmək bizlərə nəsib oldu".

Şəki rayonundan gəlmiş Turan qəsəbəsinin icra nümayəndəsi Nağı Tağıyev dedi:

- Fəxr edirəm ki, oğlum Tural da Vətən oğulları sırasındadır. Dövlətimizin orduya göstərdiyi yüksək qayğı göz önündədir. Əsgərlər üçün yaradılan şərait ölkə rəhbərinin ordumuza olan diqqətini əks etdirir. İnanıram ki, övladlarımız müqəddəs borclarını fədakarlıqla yerinə yetirəcək, Azərbaycan əsgəri adını həmişə uca tutacaqlar.

Növbəti həmsöhbətim Məzahir Niftəliyev isə uzun illər daxili işlər orqanlarında çalışıb. Oğlu Elşad Ukrayna Beynəlxalq Münasibətlər Akademiyasının məzunudur. Ali təhsilini başa vurduqdan sonra hərbi xidmətə gəlib. O deyir:

- Dövlətimiz tərəfindən orduya göstərilən qayğı bir valideyn kimi məni də sevindirir. Prezidentimizin verdiyi tapşırıqlara əsasən, Müdafiə Nazirliyi tərəfindən həyata keçirilən tədbirlər ordu ilə xalqın birliyini əks etdirir. Orduda döyüş hazırlığının yüksəldilməsi, keçirilən genişmiqyaslı təlimlər xalqımız tərəfindən böyük rəğbətlə qarşılanır. İnanırıq ki, xalqımızın ölkə rəhbəri ətrafında sıx birləşməsi, respublikamızın beynəlxalq aləmdə artan nüfuzu, ordumuzun günü-gündən möhkəmləndirilməsi işğal altında olan torpaqlarımızın azad olunacağı günü yaxınlaşdırır.

Əsgər anası Nailə Qafarova Bakı şəhəri, Nizami rayon sakinidir. O, ürək sözlərini belə ifadə etdi:

- Hərbi hissədə əsgərlər üçün yaradılan şərait bir ana kimi məni sevindirdi. Bizə göstərilən diqqət, ordu həyatı ilə yaxından tanışlıq deməyə əsas verir ki, Vətənimizin bu günü və nurlu gələcəyi naminə ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyev tərəfindən həyata keçirilən uğurlu daxili və xarici siyasət bəhrəsini verməkdədir. İnanıram ki, ölkəmizin sürətli inkişafı həmişə təmin olunacaq, Silahlı Qüvvələrimiz qələbə sevincini bizlərə nəsib edəcəkdir.

Sonda Azərbaycanın Milli Qəhrəmanı general-leytenant Rövşən Əkbərov "Açıq qapı" günündə iştirakına görə tədbir iştirakçılarına minnətdarlığını bildirdi.

* * *

Hərbi Dəniz Qüvvələrinə məxsus hərbi hissənin qarşısında qələbəlikdi. Yaşlılar da var, cavanlar da, gənclər də, uşaqlar da. Onları bura daxili hiss, maraq gətirib. Sezilməsi, hiss olunması, duyulması çətin olmayan bu maraq əsgərlərin timsalında Silahlı Qüvvələrimizə rəğbətdi, sevgidi.

Onlar da inanırlar ki, Silahlı Qüvvələrimiz Cənubi Qafqazın ən güclü ordusudur. Belə bir orduda xidmətin də, şəraitin də gözəlliyini görəcəklər, ordunun qüdrətinə, gücünə bir daha əmin olacaqlar. Evlərinə dönüşlərində gördüklərini soruşanlara, maraqlananlara ağızdolusu danşacaqlar...

Bir azdan hərbi hissənin qapıları "Açıq qapı" günü üçün açılacaq. Oğlunu, qardaşını görməyə, onun xidmət yeri ilə hərtərəfli tanış olmağa gələnlər qərargahın qarşısına tələsirlər.

Hərbi Dəniz Qüvvələri Komandanının vəzifələrini icra edən 1-ci dərəcəli kapitan Şahin Məmmədov qonaqları salamlayır. Böyük səmimiyyətlə bildirir ki, bu gün əsgər yataqxanalarına da, gəmilərə də, qərargaha da baxış təşkil olunacaq. "Şəxsi heyətin normal yaşaması, döyüş xidməti aparması üçün hər cür şərait yaradıldığının şahidi olacaqsınız. Tam sərbəstsiniz..."

Hərbi hissənin yüksək rütbəli zabitləri, valideynlər, ictimaiyyət nümayəndələri ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoyurlar...

...1-ci dərəcəli kapitan Natiq Bağırov "Açıq qapı" gününün mahiyyəti, məqsədi haqqında məlumat verir.

Azərbaycan Vətən Müharibəsi Veteranları Birliyi Səbail rayon təşkilatının sədri İlham Əliyev, Əfqanıstan və Qarabağ müharibəsi veteranı Sərraf Orucov çıxışlarında bildirirlər ki, belə bir tədbir cəmiyyətin ordu haqqında düşüncələrini dolğunlaşdırır, vətəndaşların Silahlı Qüvvələrə inamını və sevgisini daha da artırır. Qətiyyətlə, böyük səmimiyyətlə onu da deyirlər ki, ordu sıralarından tərxis olunsalar da, həmişə Vətənin əsgərləridir. "Vətən naminə son nəfəsəcən. Ali Baş Komandanın istənilən əmrinə biz də hazırıq..."



Gənc yazar, qiraətçi Ülkər Piriyevanın dediyi şeir hamını duyğulandırır...

Körpülərdə dənizçilərin geyimlərindən ibarət sərgi təşkil edilib. Valideynlər də, qonaqlar da, biz də maraqla baxırıq. Onların öz respublikamızda istehsal olunduğunu biləndə, təbii ki, qürurlanırıq.

"Dəniz piyadaları". Valideynlər bu haqda çox eşidib. Filmlərdə onları çox görüb. İndi onların çevikliyini, gücünü, ekstremal şəraitdə ani reaksiyasını, ... görür. Bir ananın kövrək pıçıltısını eşidirəm: "Can ay bala...". Az sonra zərblə yerə dəyənin ayağa qalxdığını görüncə üzü gülür...

Zabitlərin müşayiəti ilə əsgər yataqxanaları və gəmilərlə tanışlığa hamı maraq göstərir. Olduqca səliqəli otaqlar baxana könül xoşluğu verir. Bir ana oğluna aid olan yatağa əl gəzdirir. Bayaq bundan səliqəli olduğunu hiss eləyib geri çəkilir. Matros oğlu gülümsünür.

Tükəz Balacayevadı. Qax rayonundan gəlib. Oğlu Ülvi Əzimli üç aydı xidmətdədir. Ana-oğul arasında müşahidə elədiyim bu məqam söhbətimizə vasitə olur:

- Bacarırmı?

Ana bir qədər tutulur. Çarəsizliklə gülümsünür. Qürurlandığını sezmək çətin deyil:

- Deyəsən məndən yaxşı bacarır...

Ani olaraq susur. İnsanın könül xoşluğu ilk baxışdan hiss olunur. Şəraitdən razı qaldığı seziləndi. Sözü arzuladığım məcraya yönəldir:

- Yüz eşitməkdən bir görmək yaxşıdı. Oğlumun andiçməsində atası gəlmişdi. Hər şeyin yaxşı olduğunu demişdi. İnansam da, ana ürəyidi, bu dəfə özüm gəldim. Eşitdiklərimi gördüm. Müdafiə nazirinə təşəkkür edirəm ki, əsgərlərə yüksək şərait yaratmaqla biz anaları intizardan qurtarır. On beş ayı könül rahatlığıyla yaşayacam...

Zərgül Ağayeva da söhbətə qoşulur. Sevincini, könül rahatlığını bölüşmək üçün.

- Göyçaydan gəlmişəm, - deyir. - Oğlum Abbas bir ildi burda xidmət edir. İşdən vaxt tapıb baş çəkməyə gəlmişəm. Bu dəfə daha böyük həvəslə. Əvvəllər şəraitin necəliyini oğlumdan soruşurdum. Bu gün soruşmağa ehtiyac olmadı. "Açıq qapı" günündə bütün qapılar üzümüzə açıldı. Nə ilə maraqlanırsan, bax, soruş. Bu şəraiti yaratdığına görə Müdafiə nazirinə minnətdarlığımı bildirirəm.

Ana ürəyinə əminlik gətirən bu əlamətdar gün Silahlı Qüvvələrimizin tarixində həmişə könül xoşluğuyla xatırlanacaq...

Vahidin yeddi yaşı var. Saatlıdan qardaşının görüşünə bayrağımızla gəlib. Atasıyla gəlib, ancaq sərgiyə də tək baxır, dəniz piyadalarının məharətinə də. Bu maraq adi maraq deyil. Bu maraq özü boyda bir sevgidi, yeddi yaşlı uşağın ürəyinin döyüntülərinə qarışıb. "Bəlkə burda qalasan?" - soruşuram. Maraqla üzümə baxır. Bu baxışların sorğu çalarını sezmək çətin deyil. Bir qədər tutulur. "İcazə versələr qalaram. Vaxtı çatanda yolum burdan keçəcək..." - deyir. Həm də o qədər əminliklə, o qədər qürurla deyir ki, onu xəyalən gəminin göyərtəsindəki matrosların sırasında görürəm...

Xəzər elə sakitdi ki. Anaların, ataların bu gəlişinə həvəslə, həsədlə "baxır". Onunla gecəli-gündüzlü "həmsöhbət" olanlara, asudə vaxtında dalğalarının pıçıltısını həvəslə dinləyənlərə sayğıya görə minnətdarlıqdı bəlkə?..

Bir ananın dediklərini eşidirəm: "Canınız sağ olsun, ay bala. Oğlum gəlirdi, gəlinim gəlirdi. Nəvəmin xidmətindən razılıqla danışırdılar. İnanırdım. Amma yenə ürəyim bura meyillənirdi, narahatlıq ürəyimi yenə gəmirirdi. İndi özüm gördüm. Ürəyim yerinə düşdü..." - Şamaxının İkinci Çaylı kəndindən nəvəsinin görüşünə gələn Firuzə ana "Açıq qapı" gününün təşkilinə görə razılıq eləyirdi. Öyrənirəm ki, nəvəsi Zahir üç aydı ordu sıralarındadı. Nümunəvi xidmət edir. Atası Vidadi də övladının xidmətindən qürur duyduğunu bildirir...

Aydın Dünyamalıyevin oğlu Əlibala Dillər universitetinin məzunudu. 3 aydı hərbi xidmətdədi. Andiçmədən sonra oğlunu ilk dəfə görəcək. Sözarası deyir ki, vətəndaş olaraq o da ordunu xalqın dayağı bilir. "Xalq şairi Zəlimxan Yaqubun "Ordum varsa, yurdum var" şeiri hər vətəndaşın düşüncələrinin şeiridi.

"Açıq qapı" günü cəmiyyətin ordu haqqında təəssüratlarını zənginləşdirdi. Bir daha əmin olduq ki, Silahlı Qüvvələrimizdə şəxsi heyətin məişəti də, xidməti şəraiti də olduqca gözəldi. Son vaxtlar aparılan islahatların nəticələrini gördük, ürəyimiz dağa döndü. Müdafiə nazirinə həm öz adımdan, həm də əsgər atalarının hamısının adından təşəkkür edirəm...

Döyüş gəmilərini gəzdikcə gözümüz də "doyur", könlümüz də. Onların təyinatı haqqında verilən bilgiləri Hərbi Dəniz Qüvvələrimizin gücünün təsdiqi bilirik...

Diqqətimi hərbi səhra paltarı geyinmiş iki azyaşlı uşaq çəkir. Onların da matros qardaşının görüşünə gəldiyini düşünürəm. Belə deyilmiş. Onlar - 10 yaşlı Səma, 4 yaşlı Riad miçman Sənan Kazımovun uşaqlarıymış. "Əlində dalğalanan bayrağı bir azdan kimə verəcəksən?" - Riaddan soruşuram. "Ən yaxşı matrosa", - tələsik dillənir. Bir azdan onları iki matrosun əhatəsində görürəm. Matroslar onlarla elə şirin-şirin kəlmələşir ki!..

- Bu gün "Açıq qapı" günü olacağını biləndə onları da aparmağımı xahiş elədilər. Bu yaşda uşaqların, xüsusən də oğlumun hərbi xidmətə marağına sevindim. Görmələri yaxşıdı, - Sənan belə deyir...

...Atalar-analar oğulları ilə nahar edirlər. Kimisinin oğlu 4 aydı xidmətdədi, kimisinin oğlu 7, kimisinin oğlu 10. Son 4 ayda, 7 ayda, 10 ayda belə həvəslə, belə könül xoşluğuyla nahar eləməyiblər.

..."Açıq qapı" günündə hamı müqayisəyəgəlməz sevincin cazibəsindədi. Baxışlarda minnətdarlıq görürəm, şükranlıq görürəm...

"Açıq qapı" günü xalqla ordunun birliyini bir daha təsdiq etdi. Gələnlər ordumuzun daha möhtəşəm olacağına əminliklə qayıdacaqlar.

...Xırdaca-xırdaca əsən yel ağacların budaqlarından üzülən yarpaqları gələnlərin yollarından silir. Hərbi hissənin qapıları "Açıq qapı" günü üçün açılmışdı. Gələnlər könül xoşluğuyla qayıdırlar...







***Müdafiə Nazirliyinin hərbi hissə və birləşmələrində keçirilən "Açıq qapı" günündə ölkənin kütləvi informasiya vasitələrinin nümayəndələri də iştirak ediblər. AzərTAC-ın əməkdaşları əsgər valideynləri ilə görüşərək onların ürək sözlərini qələmə alıblar. Bəzilərini oxucularımıza təqdim edirik.***



"Gözümün ağı-qarası bir övladım var. Onu böyüdənədək çox əziyyət çəkmişəm. Çünki oğlum Sübhan kiçik yaşlarından atasını itirib. O, əsgərlik yaşına çatanda çox həyəcan keçirirdim. Bir aydır ki, həqiqi hərbi xidmətdədir. Gecə-gündüz onu düşünürdüm. Eşitdim ki, bu gün hərbi hissələrdə "Açıq qapı" günü keçirilir. Mən də oğlumun şəraitini öz gözlərimlə görmək üçün buraya gəldim. Gözlərimə inanmadım, hərbi hissədə gözəl şərait yaradılıb. Keçirdiyim bütün narahatlıqlar əbəs imiş". Bu sözləri "N" hərbi hissəsində keçirilən "Açıq qapı" gününün iştirakçısı, övladı həqiqi hərbi xidmətdə olan Qəbələ rayonu, Böyükəmirli kəndinin sakini İlhamə Hacıyeva deyib.

Oğlunun qulluq etdiyi hərbi hissədə gördüyü şəraitdən fərəh duyduğunu söyləyən əsgər anası bütün bunlara görə Prezident İlham Əliyevə minnətdarlığını bildirib.



Hərbi hissənin hər bir Azərbaycan gənci üçün böyük məktəb olduğunu söyləyən Qax rayonunun Qum kəndindən gələn şəhid atası Abdulrəhim Yusifov deyib: "Bu gün ordumuzun qüdrətinin şahidi oldum. Hər cür lazımi şəraitlə əhatə olunan əsgərlərimiz müasir döyüş texnikasını da həvəslə öyrəniblər. Bu cür ordusu olan Vətən basılmaz. Bizim Silahlı Qüvvələrimiz artıq düşməni diz çökdürməyə qadirdir".



Sumqayıt şəhərindən oğlunu görməyə gələn Gülşən Abdullayeva isə hərbi hissədə əsgərlər üçün yaradılan şəraitdən razılığını bildirib: "Bu soyuq günlərdə əsgərlərimiz isti geyimlərlə, rahat şəraitlə təmin olunublar. Onlara verilən yeməklər də evdə bişirilən xörəklərdən seçilmir. Artıq oğlum Musa üçün heç bir narahatlığım yoxdur. Oğluma Vətənə layiqli əsgər olmağı tövsiyə etdim. Əminəm ki, o, öz nümunəvi xidməti ilə fəxrimiz olacaq".



"Burada iştirakım məndə ordumuz haqqında tam təsəvvür yaratdı. Əsgərlərimizə yaradılan şəraiti gözlərimlə gördüm. Bir daha əmin oldum ki, işğal altında olan Qarabağımızı yağı düşməndən azad edəcəyimiz gün elə də uzaqda deyil". Bu sözləri "N" hərbi hissəsində keçirilən "Açıq qapı" günündə Bərdə rayonu, Cəyirli kənd sakini Asif Ələkbərov deyib.

Azərbaycan Ordusunda yaradılan şəraitin onda qürur hissi doğurduğunu bildirən A.Ələkbərov, həmçinin əlavə edib ki, oğlu Sübhan da evə yazdığı məktublarda xidmət etdiyi hərbi hissədə yaradılan şəraitdən daim razılıqla bəhs edib: "Yaradılan bu imkandan istifadə edərək, buraya gəldim və oğlumun dediklərinin canlı şahidi oldum. Əsgərlərimiz qayğı ilə əhatə olunub. Bütün bunlara görə Ali Baş Komandanımıza minnətdaram".



Əsgər anası Zərifə İsmayılova hərbi hissədəki xidmət və məişət şəraitindən çox razı qaldığını bildirib: "Burda bizim övladlarımız diqqət və qayğı ilə əhatə olunub. Komandirlər əsgərlərə öz övladları kimi baxırlar. Biz hərbi hissəni gəzdik, yataqxana, camaşırxana və yeməkxanada olduq. Oğlumla birlikdə əsgər yeməyinin dadına da baxdım. Evdə bişirilən xörəkdən heç də fərqlənmir".



Oğlu ilə görüşə gələn Nizami Mehdizadə isə yaradılan şəraitdən razılığını bildirərək deyib: "Oğlumun qüdrətli Azərbaycan Ordusunda xidmət etməsindən fəxr duyuram. Dövlətimizin əsgərlərimizə qayğısından həmişə razı olmuşam. Uşaqlarımız vətənpərvər ruhda tərbiyə alıb, Vətənə sədaqətli övlad kimi yetişirlər. Yaddan çıxarmaq olmaz ki, bizim torpaqlarımız işğal altındadır. Təkcə hərbçilərimiz yox, hər bir Azərbaycan vətəndaşı Ali Baş Komandanın əmri ilə hər an silaha sarılmağa hazır olmalıdır".



Əsgər anası Səbinə Göyüşova isə fikirlərini belə ifadə edib: "Oğlum 4 aydır hərbi xidmətdədir. Bir valideyn kimi onun üçün çox narahat idim. Bu gün digər valideynlər kimi mən də hərbi hissə ilə tanış oldum. Burada gördüklərimdən sonra artıq heç bir narahatlığım qalmadı. Fəxr edirəm ki, Azərbaycan əsgərinin anasıyam. Övladlarımız üçün yaradılan bu şəraitə görə əsgər anaları adından ölkə rəhbərliyinə minnətdarlığımı bildirirəm".

**"Azərbaycan Ordusu"**

AZƏRBAYCAN ORDUSU

General Səməd bəy Mehmandarov - 160

# Aydınlıq yağışı yağırdı...





***Çən-çisəkdi. Narın yağış yağır. Bu nə gözlənilməz yağışdı belə? Təbiətin neçə illər əvvəl olanlara qəzəbidimi? Xalqın bir ömrə bugünkü ehtiramıdımı?***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə qədim Gəncə şəhərində tam artilleriya generalı Səməd bəy Mehmandarovun 160 illiyinə həsr olunmuş kütləvi hərbi vətənpərvərlik mərasimi keçirilir. Məlum olduğu kimi, görkəmli hərb xadiminin yubileyinin Silahlı Qüvvələrimizdə geniş qeyd edilməsi məqsədilə Müdafiə naziri general-polkovnik Zakir Həsənovun əmri ilə tədbirlər planı da təsdiq olunub. Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Mədəniyyət və Turizm Nazirliyi, həmçinin, Gəncə şəhər İcra Hakimyyəti ilə birgə keçirdiyi bu tədbirin ssenari müəllifi və rejissoru əməkdar incəsənət xadimi polkovnik Abdulla Qurbani yubileyi tam yeni tərtibatda təqdim edir. İri ölçülü monitorda kadrlar əvəzlənir. Elə kadrlar ki, zamanında tam artilleriya generalı Səməd bəy Mehmandarovun ömründən keçib.

Budur, ekranda Səməd bəy Mehmandarov görünür. İkili təsvirlə alov dilləri onu qarsılamaq, yandırmaq, külə döndərmək istəyir. Bacarmır. Bacarmaz da. Ömrünü xalqı üçün, milləti üçün, dövləti, dövlətçiliyi üçün yaşayanlara alov da kar eləyə bilməz. Bu ömür bu günümüz, müstəqilliyimiz naminə ocaq olmuşdu. Ömür ocağına belə cılız od nə eləyə bilər ki...

Aparıcılar - Abdulla Qurbani və xalq artisti Pərvanə Qurbanova şeirləşdirilmiş mətləbləri bəyan etdikcə monitorda Səməd bəy görünür. Nə deyir aparıcılar:

*Vaxtında o da bir Cavad xanıydı,*
*Ay ellər, Səməd bəy Gəncəyə gəlir!*

*Azərbaycan adlı sözün eşqinə,*
*Ay ellər, Səməd bəy Gəncəyə gəlir!*

*Gözümüzün nuru Qarabağ üçün,*
*Ay ellər, Səməd bəy Gəncəyə gəlir!*

Səməd bəy Mehmandarov qarşılaşdığı cavanlarla kəlmələşir...

Səməd bəy Mehmandarov bir körpəni oxşayıb əzizləyir...

Monitorda çəmənliklər görünür. Güllər qönçəsindən boy göstərir. Bayaqkı alov kimi bu da rəmzdi. Tam artilleriya generalı Səməd bəy Mehmandarovun görə bilmədiyi müstəqilliyə işarədi. Gülaçma yenidən müstəqil olduğumuzun analogiyası, rəmzi kimi təqdim olunur. Tədbirə gələnlər bunu belə də qəbul edirlər.

Aparıcılar iftixar ünvanlarımızdan olan generalın ömür yolundan danışır: yaponlarla müharibədə əliyalın insanların güllələnməsinə imkan vermədiyini bildirirlər, Port-Artur qəhrəmanı olduğunu, zamanında İngiltərə hökumətinin onu ordenlə təltif etməsini, ingilislər Azərbaycan Demokratik Cümhuriyyətinə düşmən kəsiləndə isə həmin ordeni geri qaytardığını deyirlər.

Hərbiyyə naziri təyin olunanda xalqa müraciəti toplaşanları duyğulandırır. Adilikdə qeyri-adi olan bu müraciət vətənpərvərlik çağırışı idi. İndi də həmin gücdədi: "Əziz Vətənimizin adına müraciət edirəm, gözəl Vətənimiz Azərbaycan eşqinə, yüksək vətənpərvərlik hissləri naminə mənə qoşulmağınızı xahiş edirəm..."...



Müraciətdə "mən" Vətən kəlməsinin özüdü, "Vətənə qoşulmağınızı xahiş edirəm" kimi səslənir. Mətn monitorda da izlənilir. Yeri gəlmişkən, həm eşitmə, həm görmə, həm də duyma bu tədbirin düşüncələrə hopmasını birmənalı şəkildə təmin edir. Yanaşı oturduğum bir nəfərin pıçıltısını eşidirəm: "O vaxtlar yaşasaydım, bu müraciətdən sonra evdə oturmazdım..."

Könül xoşluğuyla ona baxıram. Gülümsünür: "O vaxtlar Səməd bəyin əsgəri atam oldu. Qarabağ naminə döyüş başlasa, mən də əsgər olacam!" - deyir. Adını öyrənməyə macal olmur. Nə fərqi, milyonlarla azərbaycanlıdan biridi...

Azərbaycanımızın hərb tarixində qürurla, ehtiramla səslənən bu adın işığı Gəncə Olimpiya Kompleksinə sığmır. Hər sözü kəlam gücündə olan 160 yaşlı bu böyük tarixi şəxsiyyətin təvazökarlığını sezmək çətin deyil. Lənkəranda qiyamın necə yatırdılması haqqında müəyyən məlumatımız var. General Səməd bəy Mehmandarovun bu haqda dedikləri o qədər səmimidi ki....

Tədbir teatrlaşdırılmış formatda keçirildiyindən generalın həyat yoldaşını da görürük, oğlunu da. Azərbaycan Cümhuriyyəti süquta uğradıqdan sonra həyat yoldaşı ona təkid edir ki, getmək lazımdır. Vətəndən uzaqlara. Getmir general. "Biz olmasaq da, müstəqil Azərbaycan olacaq!" inamı ilə. "Bu çətin gündə Vətəndən ayrılmağa heç bir əsasım yoxdur..." - qətiyyəti ilə...

Cümhuriyyət ordusu görününcə generalın gözləri dolub-boşalır. Yaratdığı ordunun yaşarlılığına sevinir, döyüş və psixoloji hazırlığının yüksək səviyyəsinə sevinir. Kompleks boyunca dalğalanan bayraqlarımıza baxır, xalqımız üçün, dövlətimiz, dövlətçiliyimiz üçün yaşadığı illərə görə sevinir. O da tamaşaçılarla bir sırada bu bayrağın bir daha enməyəcəyinə inamla baxır.

Tədbir boyu Silahlı Qüvvələrin Mahnı və Rəqs Ansamblının nümunəvi orkestrinin üzvlərinin, habelə tanınmış vokalist Ramil Qasımovun ifasında mahnılar təqdim olunur. Ansamblın solistlərinin ifasında rəqslər hamıya könül xoşluğu bəxş edir.

Hələ Cümhuriyyət dövrünün hərbi marşları...

Hələ Səməd bəyin general Əlağa Şıxlinski ilə səssiz-sözsüz mükaliməlşməsi...

Hələ Abdulla Qurbaninin rejissurasında görüntülərin mətləb yozumu...

Hələ bu il cəbhə bölgəsində erməni helikopterini vuran əsgərin tam artilleriya generalı Səməd bəy Mehmandarova məruzəsi, qibtəediləcək görüşləri...

Tədbirdə general-leytenant Heydər Piriyev, general-leytenant Rövşən Əkbərov, general-mayor Rasim Əliyev də iştirak edirlər. Tədbir iştirakçıları tam artilleriya generalı Səməd bəy Mehmandarovun ömrünə belə bir ehtirama görə onları səmimiyyətlə salamlayır. Tədbirin sonunda bu generalların çıxışları toplaşanları əmin edir ki, belə ömürlər həqiqətən yaşarı ömürdü...

Gəncə şəhər Nizami rayon İcra Hakimyyətinin başçısı Nizami Hacıyev də yubiley münasibəti ilə tədbir iştirakçılarını təbrik edir...

Abdulla Qurbaninin son kəlmələri bir mətləbin təsirindədi...

Tam artilleriya generalı, ilk hərbiyyə nazirimiz Səməd bəy Mehmandarovun 160 illik yubileyidi.

Yağış yağır...

Aydınlıq yağışıdı...

**Rəşid HÜSEYNOV,**
**"Azərbaycan Ordusu"**

## Milli Qəhrəmanın xatirəsinə həsr olunan güləş turniri başlayıb

***Oktyabrın 27-də Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində Azərbaycanın Milli Qəhrəmanı, SSRİ idman ustası, əməkdar məşqçi mayor Əliyar Əliyevin xatirəsinə həsr olunmuş sərbəst və yunan-Roma güləşi üzrə turnirə start verilib.***



AZƏRTAC xəbər verir ki, turnirin açılış mərasimində Qarabağ müharibəsində şəhid olmuş Vətən övladlarının, o cümlədən Əliyar Əliyevin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra Ə.Əliyevin döyüş yolunu əks etdirən sənədli film nümayiş olunub.

Tədbirdə çıxış edənlər tabor komandiri Əliyar Əliyevin idmançı, məşqçi, döyüşçü kimi daim yaddaşlarda qalan mənalı ömür yolundan danışıblar. Bildirilib ki, torpaqlarımızın Ermənistanın işğalına məruz qaldığı dövrdə Əliyar Əliyev müharibənin ən qaynar nöqtələrində fədakarcasına döyüşüb. O, bir qrup döyüşçü ilə işğal altında olan Laçın rayonunun 30-dan çox məntəqəsini ermənilərdən azad edib. İgid döyüşçü 1992-ci il oktyabrın 3-də Laçın şəhərinin iki kilometrliyində, "Qanlı zəmi" adlanan ərazidə şəhid olub.

Milli Qəhrəmanın qardaşı, ehtiyatda olan zabit Rüzgar Əliyev igid döyüşçünün xatirəsinə göstərilən hörmət və ehtirama görə tədbirin təşkilatçılarına və iştirakçılarına təşəkkürünü bildirib.

Sonra Müdafiə Nazirliyi tərəfindən Milli Qəhrəmanın ailəsinə xatirə hədiyyəsi təqdim edilib.

Azərbaycan Respublikasının Dövlət himni səsləndirildikdən sonra hərbi marşın sədaları altında turnirə start verilib.

Silahlı Qüvvələrin bütün hərbi hissə və birləşmələrinin təmsil olunduğu birincilikdə 14 komanda mübarizəyə qoşulub. Turnir oktyabrın 30-dək davam edəcək.

Qaliblərə diplom, medal, fəxri fərman və keçici kubok təqdim olunacaq.

Xatırladaq ki, Əliyar Əliyev klassik güləş üzrə dəfələrlə respublika, SSRİ çempionu adına layiq görülüb. O, beynəlxalq turnirlərin qalibi olub, mötəbər yarışlara hakimlik edib, idmansevərlər arasında baş hakim kimi böyük hörmət qazanıb. Onun yetirmələri arasında 8 SSRİ və respublika çempionu, bir olimpiya yığma komandasının üzvü, bir dünya çempionu, 10-dan çox idman ustası, beynəlxalq turnirlərin qalibləri var.

“Vətənə, xalqa və dövlətə xidmət ömrümüzün mənasıdır”

## Cəmşid Naxçıvanski adına Hərbi Liseydə voleybol yarışı keçirilib

***Azərbaycan Silahlı Qüvvələrində şəxsi heyətin fiziki hazırlığının yüksəldilməsinə xüsusi diqqət yetirilir. Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi plana əsasən, hərbi hissələrdə, hərbi təhsil müəssisələrində "Vətənə, xalqa və dövlətə xidmət ömrümüzün mənasıdır" devizi altında idman tədbirləri və yarışlar təşkil edilir.***

Cəmşid Naxçıvanski adına Hərbi Liseydə də kursantların fiziki hazırlığı daim diqqət mərkəzindədir. Burada bacarıqlı idman mütəxəssislərinin rəhbərlik etdiyi müxtəlif idman dərnəkləri fəaliyyət göstərir. Yeniyetmələr Silahlı Qüvvələr birinciliklərində fəal iştirak edərək müxtəlif əyarlı medallar qazanırlar.



Bu günlərdə Hərbi Liseydə "Vətənə, xalqa və dövlətə xidmət ömrümüzün mənasıdır" devizi altında bölüklərarası voleybol yarışı keçirilib. Yeniyetmə kursantların böyük həvəs göstərdiyi yarış əsl idman mübarizəsi şəraitində keçib.

Yarışın nəticələrinə görə, qalib gələn iki komanda arasında final matçı baş tutub. Cəmşid Naxçıvanski adına Hərbi Liseyin rəisi polkovnik Rüfət Əmirov və bütün şəxsi heyət final yarışını böyük həvəslə izləyiblər.

Voleybol yarışında ilk üç yeri tutan komandaların hər bir üzvünə medallar təqdim olunub. İkinci və üçüncü yerlərə sahib olan komandalara fəxri fərmanlar, birinci yeri tutan komandaya isə keçici kubok verilib.



Yarışın yüksək səviyyədə təşkilinə görə Hərbi Liseyin fiziki hazırlıq bölməsinin müəllimlərinə də fəxri fərmanlar təqdim edilib.

**"Azərbaycan Ordusu"**

## Akira Amari: Dağlıq Qarabağ münaqişəsinin həlli regionda sülhün təmini üçün vacibdir

***Yaponiya-Azərbaycan parlamentlərarası dostluq liqasının nümayəndə heyəti oktyabrın 27-də Milli Məclisdə olub.***

AZƏRTAC xəbər verir ki, Milli Məclisin sədri Oqtay Əsədov nümayəndə heyəti ilə görüşüb.

Oqtay Əsədov ölkələrimiz arasında münasibətlərin inkişafında yüksək səviyyəli qarşılıqlı səfərlərin, görüşlərin əhəmiyyətini vurğulayıb. O, bu səfərin də əməkdaşlığın inkişafına mühüm təkan verəcəyinə inandığını bildirib.

Milli Məclisin sədri indiyədək ölkələrimiz arasında 26 sənədin imzalandığını, daha 23 sənədin isə imzalanma ərəfəsində olduğunu söyləyib. Əlavə edib ki, bu, ölkələrimizin siyasi münasibətlərinin yüksək, hüquqi bazasının isə möhkəm olduğunu göstərir.

Sədr ticarət dövriyyəsinin də ildən-ilə artdığını deyib, qeyri-neft sektoru sahəsində geniş əməkdaşlıq üçün mövcud imkanlardan söhbət açıb.

Əlaqələrin inkişafında parlament diplomatiyasının mühüm əhəmiyyətini qeyd edən Oqtay Əsədov ölkələrimizin beynəlxalq qurumlardakı birgə səmərəli əməkdaşlığından danışıb. Yaponiyanın həmin qurumlarda Azərbaycanın mövqeyini dəstəklədiyinə görə təşəkkürünü bildirib.

Yaponiya-Azərbaycan parlamentlərarası dostluq liqasının rəhbəri, iqtisadi dirçəliş, sosial müdafiə və vergilərin ümumi islahatı üzrə nazir, iqtisadi və maliyyə siyasəti üzrə dövlət naziri Akira Amari ölkəsinin Azərbaycanla əlaqələrin inkişafında maraqlı olduğunu deyib. O, əməkdaşlığın genişləndirilməsi üçün daha səylə çalışacağını söyləyib. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən danışan qonaq ölkəsinin bu məsələnin tezliklə həll ediləcəyinə ümidvar olduğunu qeyd edib. O bildirib ki, bu münaqişənin nizamlanması bütövlükdə regionda sülhün təmini üçün çox vacibdir.

## Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, oktyabrın 27-də Azərbaycan Respublikasının Tərtər rayonu ərazisindəki qoşunların təmas xəttində monitorinq keçirilib.

Əvvəlcədən əldə olunmuş razılığa əsasən, monitorinq zamanı ATƏT-in Minsk Qrupunun həmsədrləri İqor Popov (Rusiya), Pyer Andryu (Fransa), Ceyms Uorlik (ABŞ), eləcə də qurumun fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anjey Kasprşik təmas xəttini qarşı tərəfdən Azərbaycan Silahlı Qüvvələrinin nəzarətində olan hissəsinə keçiblər.

Sonra həmsədrlər yerli komandanlıq və icra hakimiyyəti nümayəndələri ilə görüşərək səhra şəraitində brifinq keçiriblər.

Atəşkəs rejiminin pozulmaması barədə razılığa baxmayaraq, tədbir zamanı düşmən tərəfindən Azərbaycan Silahlı Qüvvələrinin mövqeləri istiqamətində avtomatik silahdan bir neçə dəfə atəş açılıb.

Həmsədrlərin müdaxiləsindən sonra atəş dərhal dayandırılıb.

* * *

***27 oktyabr 2015-ci il.***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 99 dəfə pozub.

Erməni silahlı bölmələri İcevan rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonu ərazisindəki adsız yüksəkliklərdə, Berd rayonunun Mosesqex kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimizi atəşə tutub.

Goranboy rayonunun Talış, Gülüstan, Tərtər rayonunun Göyarx, Çiləbürt, Çaylı, Yarımca, Qızıloba, Ağdam rayonunun Cəvahirli, Kəngərli, Sarıcalı, Şuraabad, Mərzili, Novruzlu, Şıxlar, Qaraqaşlı, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Horadiz, Qaraxanbəyli, Qorqan, Aşağı Əbdürrəhmanlı, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin, Göygöl, Goranboy, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Azərbaycan Silahlı Qüvvələri əməliyyat şəraitini nəzərə alaraq, düşmənin atəş nöqtələrinə, mövqelərinə və səngərlərinə 101 dəfə atəş zərbəsi endirib.

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik
Şəfaət Mehdiyev küçəsi 144,
“Qızıl Şərq” hərbi şəhərciyi

**Növbətçi**
mayor
Vahid MƏHƏRRƏMOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur.
“Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək “Hərbi nəşriyyat”ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 824
Nüsxə 4710